*"Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur".*

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 4 fevral 2015-ci il № 9 (1925) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## "Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır, bütün başqa münaqişələr kimi vahid bir yanaşma olmalıdır"

***Azərbaycan həqiqətlərinin, xüsusilə 20 ildən artıqdır ki, güclü havadarlarının hərbi dəstəyilə Ermənistan ordusu tərəfindən işğal edilmiş Dağlıq Qarabağla bağlı obyektiv məlumatların beynəlxalq ictimaiyyətə çatdırılması imkanı olan hər bir Azərbaycan vətəndaşının müqəddəs vəzifəsidir. Bu sahədə Azərbaycan Prezidenti İlham Əliyevin çoxşaxəli fəaliyyəti hər bir vətəndaş üçün əsl örnəkdir.***



Bu yaxınlarda dövlət başçısının Almaniya Federativ Respublikasına işgüzar səfəri bir sıra maraqlı məqamlarla yadda qaldı. Almaniya və Azərbaycan arasında əlaqələrin inkişafı, ikitərəfli əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm kəsb edən səfər zamanı ölkəmizin rəhbəri Berlində bir sıra görüşlər keçirdi, beynəlxalq, regional və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardı.

Almaniyaya səfəri zamanı diqqəti çəkən məqamlardan biri də Azərbaycan Prezidentinin ölkəmiz üçün ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsilə bağlı Berlində səsləndirdiyi bəyanat oldu.

Berlində Prezident İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin görüşü zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Həmişə Azərbaycanın ən mürəkkəb probleminə böyük həssaslıqla yanaşan dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, rəsmi Yerevanın qeyri-konstruktiv mövqeyi, danışıqların hazırkı prosesi barədə Almaniya Kanslerinə ətraflı məlumat verdi.

Onu qeyd etməyə dəyər ki, Almaniya Federativ Respublikası Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ikili standartlardan deyil, vahid prinsipial mövqedən çıxış edib. Rəsmi Berlin həmişə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması və erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi barədə ortaya rəsmi mövqe qoyub. Vaxtilə Minsk qrupunun həmsədrləri məsələsi həll edilərkən Azərbaycan Almaniyanın sədrliyini dəstəkləsə də, Ermənistan məhz prinsipial mövqeyinə görə rəsmi Berlinin əleyhinə olmuşdu.

Almaniyanın paytaxtında kütləvi informasiya vasitələri üçün Kansler Angela Merkelin səsləndirdiyi bəyanat bu baxımdan maraq doğurur. Azərbaycan iqtisadiyyatının dinamik şəkildə inkişaf etdiyini, buna görə Almaniya üçün əhəmiyyəti artan tərəfdaş, böyük potensiala, əsasən də neft və qaz kimi resurslara malik olduğunu söyləyən xanım Merkel Azərbaycanın həm Almaniya, həm də digər Avropa ölkələrinin enerji şaxələndirilməsinə böyük töhfə verə biləcəyini düşündüyünü vurğuladı.

Almaniya hökumətinin başçısı jurnalistlərin suallarını cavablandırarkən həmçinin qeyd etdi: "Biz Dağlıq Qarabağ mövzusu haqqında danışdıq. Mən bunu qeyd etdim. Bildiyiniz kimi, biz ATƏT-in Minsk qrupunun üzvüyük. Fransa, Rusiya və Amerika onun həmsədrləridir və biz bu kontekstdə aparılan danışıqları dəstəkləyirik".

Prezident İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın işğalı və indiyədək ikili standartlar ucbatından hələ həllini tapmaması faktına da toxundu. Dövlətimizin başçısı avropalı jurnalistlərə üzünü tutaraq dedi: "Bu gün biz, eyni zamanda, regional təhlükəsizlik məsələlərinə də toxunduq. İlk növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu münaqişə həm Azərbaycan, həm də region üçün böyük təhlükə mənbəyidir. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri uzun illər ərzində Ermənistan ordusu tərəfindən işğal edilibdir. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan çox azərbaycanlı bu işğaldan əziyyət çəkir, qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Beynəlxalq təşkilatlar, ilk növbədə, BMT Təhlükəsizlik Şurası münaqişənin həlli ilə bağlı qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur və sadəcə olaraq, status-kvonu olduğu kimi saxlamaq istəyir. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır, bütün başqa münaqişələr kimi vahid bir yanaşma olmalıdır".

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## 2 Fevral Gənclər Günü münasibəti ilə Silahlı Qüvvələrdə xidmət edən gənclərə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Hörmətli zabitlər, gizirlər, çavuşlar və əsgərlər!

Əziz gənclər!

Sizi Gənclər Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir və Vətənimizin layiqli müdafiəçiləri kimi sizə ən xoş arzularımı bildirirəm.

Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun təşkili və 2 Fevral Gənclər Gününün təsis olunması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin əsasını qoyduğu Dövlət Gənclər siyasəti möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Gənclərin orduya hazırlanması, milli-mənəvi dəyərlər əsasında intellektual, fiziki və mənəvi tərbiyəsi ölkə rəhbərinin fəaliyyətində prioritetdir. Ölkəmizdə Gənclər Evləri, Olimpiya İdman Kompleksləri, idman-sağlamlıq mərkəzləri yaradılmış və gənclərin sosial problemlərinin həlli sahəsində böyük nailiyyətlər əldə olunmuşdur. Gənclərimiz beynəlxalq idman arenalarında əldə etdikləri qələbələrlə Azərbaycan bayrağını yüksəklərə qaldırırlar.

Bu gün Azərbaycan gəncləri Silahlı Qüvvələrdə xidməti özlərinə şərəf bilir və qarşıya qoyulmuş bütün vəzifələri ləyaqətlə yerinə yetirirlər. Silahlı Qüvvələrdə xidmət edənlərin böyük hissəsi gənclərdir. Hərbi xidmətdə olan gənclərimiz cəmiyyətin aparıcı qüvvəsi olaraq, Vətən və xalq qarşısında öz müqəddəs borcunu dərindən dərk edir, səngərdə, döyüş mövqeyində xidmət edən zabit və əsgərlərimizin yüksək peşəkarlığı sayəsində düşmən təxribatlarının qarşısı qətiyyətlə alınır.

Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, düşmənin kəşfiyyat-təxribat qruplarının qarşısının alınmasında qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərinə Vətən üçün layiqli övladlar böyütdüklərinə görə bir daha minnətdarlığımı bildirirəm. Şəhidlərin qisası alınır və bundan sonra da alınacaqdır.

İnanıram ki, ordu gəncləri Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə edəcək və Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında üçrəngli dövlət bayrağımızı Xankəndidə, Şuşada, Laçında və işğal altında olan digər torpaqlarımızda dalğalandıracaqlar.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

2 fevral 2015-ci il.

## Ermənistan silahlı qüvvələrinin təxribat qrupu məhv edilib

Ermənistanın Müdafiə Nazirliyinə istinadən düşmən tərəfin kütləvi informasiya vasitələrinin guya yanvarın 31-də Silahlı Qüvvələrimizin mövqelərinin və minik avtomobilinin məhv edilməsi barədə verildiyi məlumatlar yalandır və dezinformasiya xarakteri daşıyır.

Düşmən tərəfi son vaxtlar cəbhədə canlı qüvvə və texnika baxımından verdiyi ağır itkilərin, o cümlədən yanvarın 29-da məhv edilən pilotsuz uçan aparatın əvəzini çıxmaq məqsədilə heç bir uğurlu cavab tədbiri görə bilməməsi səbəbindən əsası olmayan, uydurma məlumatlar yaymaqla məyus erməni xalqını və əsgərini növbəti dəfə aldatmaqla məşğuldur.

Tam fərqli olaraq, bu gün saat 15.00 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu sahəsində düşmən tərəfin təxribatının qarşısı uğurla alınıb.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı və görülən qabaqlayıcı tədbirlər nəticəsində təxribat törətmək məqsədilə minalanmış sahədən keçid açmağa cəhd göstərən düşmənin 6 nəfərdən ibarət hərbi qulluqçusu tam məhv edilib.

Təəssüflər olsun ki, yanvarın 31-də saat 12.55 radələrində cəbhənin digər istiqamətində, Xocavənd rayonu ərazisində, erməni silahlı bölmələrinin atəşkəs rejimini növbəti dəfə pozması və düşmən tərəfindən atılan güllənin rikoşet etməsi nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu, əsgər Allahverdiyev Eşqin Rəhim oğlu dayaq məntəqəsində şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi bildirir ki, ordumuz bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir. Silahlı Qüvvələrimizin bölmələri həmişə olduğu kimi düşmənin istənilən hərəkətinin qarşısını qətiyyətlə almağa və onu məhv etməyə hazırdır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Həqiqi hərbi xidmətə çağırış başa çatıb

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, yanvarın 1-dən başlanmış növbəti həqiqi hərbi xidmətə çağırış başa çatıb.

Minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün hərbi hissələrə yola salınıb. Eyni zamanda, xidmət müddətini bitirmiş əsgər, matros və çavuşlar da ehtiyata buraxılıblar.

Sərəncama əsasən, 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılıblar.

Qeyd edək ki, Prezident İlham Əliyev dekabrın 3-də Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

**AzərTAc**

## "Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib

***Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.***

Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında bu soyqırımı ilə bağlı tədbirlərin - mətbuat konfranslarının, anım mərasimlərinin və s. təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında, internet şəbəkəsində Xocalı soyqırımına həsr olunan materialların yayılması nəzərdə tutulub.

Sənədə əsasən, ölkədə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anma mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta məktəblərdə xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər nümayiş etdiriləcək.

Xocalıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların iştirakı ilə şəhid ailələrinə yardımlar göstəriləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər bu faciəyə həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, Azərbaycanın dövlət bayraqları endiriləcək.

**AzərTAc**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Silahlı Qüvvələrində irimiqyaslı təlimlər







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, fevralın 2-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi altında Silahlı Qüvvələrin bütün qoşun növlərinin cəlb olunması ilə irimiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.***

Təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb edilib.

Ali Baş Komandanın göstərişinə əsasən, təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 5.000 nəfərədək hərbi vəzifəli və 300-ə yaxın avtomobil texnikası təlimdə iştirak edir.

* * *

***3 fevral 2015-ci il.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov irimiqyaslı təlimlərin səhra şəraitində yaradılmış əsas komanda məntəqəsində olub.

Müdafiə nazirinin rəhbərliyi ilə təlim bölgəsində müşavirə keçirilib.

Müşavirədə təlimlərə cəlb edilən birləşmə və hərbi hissələrin komandir və rəis heyətinin təlimlərdə fəaliyyətləri, planları və qəbul etdikləri qərarlarla bağlı məruzələri dinlənilib.

Müşavirədə çıxış edən Müdafiə naziri təlimlərin əhəmiyyətindən və qarşıda duran vəzifələrdən danışaraq müvafiq tapşırıq və göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri təlimlərə ehtiyatdan çağırılan hərbi vəzifəlilərlə görüşüb







***3 fevral 2015-ci il.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən keçirilən təlimlərin növbəti mərhələsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərə cəlb edilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb.

Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə Vətən və xalq qarşısında məsuliyyətlərinə diqqət çəkərək təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib.

Nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər.

"Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bu gün də davam edir. Silahlı Qüvvələrimiz bütün imkanlardan istifadə etməklə düşməni işğal olunmuş torpaqlarımızdan çıxarmağa qadirdir. Son zamanlar düşmən daha da azğınlaşıb. Amma Ermənistandakı hərbi xuntanın rəhbərləri bilməlidirlər ki, Azərbaycan Ordusu və Azərbaycan əsgəri onların layiqli cavabını verir və bundan sonra da verəcəkdir. Qısa bir müddət ərzində 20-dən çox işğalçı məhv edilib. Düşmənin onlarla yaralısı var. Silahlı Qüvvələrimiz də vətən uğrunda şəhid verib. Biz onların yaxınlarına və əzizlərinə baş sağlığı veririk. Xalqımız bilməlidir ki, şəhidlərin qisası birə on qat alınıb və bundan sonra da belə olacaqdır." - deyə Müdafiə naziri bəyan edib.

Müdafiə naziri təlimlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tələb və tapşıpıqlarına əsasən yüksək səviyyədə təşkil edilərək keçirildiyini bir daha diqqətə çatdırıb.

Qeyd edək ki, Ali Baş Komandanın göstərişinə əsasən birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə fevral ayının 2-də başlayan təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri, o cümlədən ehtiyatda olan 5.000 nəfərədək hərbi vəzifəli cəlb edilib.

Döyüş hazırlığı çərçivəsində ehtiyatdan çağırılmış hərbi vəzifəlilərə silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçirilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsini qəbul edib



Fevralın 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.

Görüşdə qoşunların təmas xəttindəki mövcud vəziyyət, keçirilən monitorinqlərin nəticələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Fevralın 2-dən 6-dək Oberammerqau (Almaniya) şəhərində Quru Qoşunlarının döyüş hazırlığının qiymətləndirilməsi kursu keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***3 fevral 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 68 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Berkaber, Vazaşen və Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı, Qaymaqlı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Novruzlu, Şıxlar, Kəngərli, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Xəbərlər: hadisələr, faktlar

## Ukrayna üzrə əlaqə qrupunun görüşü başa çatıb



Ukraynanın şərqində vəziyyətin nizamlanması üzrə əlaqə qrupunun Minskdə keçirilən görüşü başa çatıb. AzərTAc İTAR-TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Belarusun paytaxtında aparılan danışıqlarda Ukraynanın sabiq prezidenti Leonid Kuçma, qondarma Donetsk və Luqansk respublikalarının səlahiyyətli nümayəndələri Denis Puşilin və Vladislav Deyneqo, həmçinin ATƏT sədrinin xüsusi nümayəndəsi Haydi Talyavini və Rusiyanın Ukraynadakı səfiri Mixail Zurabov iştirak ediblər. Qondarma Donetsk xalq respublikasının səlahiyyətli nümayəndəsi Denis Puşilin danışıqların yekunu barədə mətbuat üçün bəyanat veriləcəyini bildirib.

## İŞİD yaraqlıları yapon jurnalist Kenzo Qotonu qətlə yetiriblər



İŞİD yaraqlıları ikinci girov yapon Kenzi Qotonu da qətlə yetiriblər. Girovun başı kəsilmiş vəziyyətdə videokadrları internet şəbəkəsinə yerləşdirilib. Bu barədə İŞİD yaraqlılarının internetdəki fəaliyyətinin monitorinqini aparan SITE təşkilatı məlumat yayıb. İnternetə yerləşdirilmiş videokadrlar çox güman ki, həqiqidir. Bu barədə juranlistlərə Yaponiyanın müdafiə naziri Qen Nakatani məlumat verib. Q.Nakatani deyib: "Polis hesab edir ki, videokadrlardakı şəxs həqiqətən də Kenzi Qotodur". K.Qotonun qətlinə kəskin reksiya verən Baş nazir Şinzo Abe başvermiş hadisəni insanlıqdan kənar və nifrətə layiq adlandırıb. Baş nazir həmçinin bildirib ki, Yaponiya terrorizmə qarşı mübarizə aparan Yaxın Şərq ölkələrinə maddi və humanitar yardım göstərilməsini davam etdirəcəkdir.

## Yaponiya yeni kəşfiyyat süni peykini uğurla kosmosa çıxarıb



Kyodo informasiya agentliyinin yaydığı xəbərə görə, fevralın 1-də səhər Yaponiya yeni kəşfiyyat süni peykini uğurla kosmosa çıxarıb. Məlumatda bildirilir ki, bu, yerətrafı orbitdə Yaponiyanın artıq beşinci kəşfiyyat süni peykidir. Əvvəlki süni peyklərin ikisi optik, digər ikisi isə radarla müşahidə qabiliyyətinə malikdir. Süni peyki orbitə Yaponiya kosmik agentliyi JAXA-nın "Mitsubishi Heavy İndustries" şirkəti ilə birlikdə hazırladığı ikipilləli "H-2A" raketdaşıyıcısı çıxarıb. Yeni peykdəki radar qurğuları Yer üzərindəki obyektləri həm buludlar üzərindən, həm də gecə saatlarında müşahidə etməyə imkan verəcək.

## Alp dağlarında qar uçqunları on nəfərin həyatına son qoyub



Son üç gündə baş verən qar uçqunları Alp dağlarının İsveçrəyə məxsus hissəsində 10 xizək həvəskarının həyatına son qoyub. Alp dağlarında bir neçə gün ərzində yağan 1-1,2 metr qalınlığındakı qarın yaratdığı uçqunlar on nəfərin həyatına son qoyub.

Xizək həvəskarlarının onlar üçün ayrılan meydançalardan kənarda sürüşmələri faciəli hadisələrlə nəticələnib. Alp dağlarının İsveçrəyə aid hissəsindəki 2200 metrlik Piz Vilon zirvəsində yeddi xizəkçi qar uçqunu nəticəsində həlak olub. Daha üç nəfər isə Oberland sürüşmə meydançasından kənarda xizək sürərkən qar uçqunları onları haqlayıb. Güclü qar uçqunu İsveçrə vətəndaşları olan hər üç xizək həvəskarının həyatını itirməsi ilə nəticələnib.

## Rusiyada ebola aşkarlanıb




Rusiyada ebola virusuna yoluxmaqda şübhəli bilinən bir nəfər xəstəxanaya yerləşdirilib. AzərTAc İTAR-TASS informasiya agentliyinə istinadən xəbər verir ki, həmin şəxs Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin Seneqal və Qvineyada işləmiş əməkdaşıdır. Ondan götürülən qan analizi bazar günü Novosibirskdəki laboratoriyaya göndərilib. Məlumata görə, "Vladivostok-Moskva" reysi ilə uçan bu şəxsin təyyarədə qızdırması qalxıb və qəfildən özünü pis hiss edib. Bundan sonra həmin sərnişin təyyarənin quyruq hissəsinə təcrid edilib. Rusiyanın Primorsk vilayətinin vitse-qubernatoru Pavel Serebryakov bildirib ki, təyyarədəki bütün sərnişinlər müayinə edilib və evlərinə buraxılıblar. Onlar bir müddət yaşadıqları ərazinin həkimlərinin nəzarətində olacaqlar.

## Misir məhkəməsi Həmasın hərbi cinahını terror təşkilatı hesab edib



Qahirənin təxirəsalınmaz işlər üzrə məhkəməsi Həmas Fələstin müqavimət hərəkatının "İzzəddin əl-Qəsamın briqadaları" adlı hərbi cinahını terror təşkilatlarının siyahısına daxil edib.

Yerli KİV-lərdə verilən məlumata görə, Həmasın hərbi cinahına qarşı qaldırılmış iddiada bildirilirdi ki, bu təşkilat Misir ərazisində silahlı qüvvələrə və polisə qarşı terror fəaliyyətində, habelə ölkədə təhlükəsizliyin və sabitliyin pozulmasında bilavasitə iştirak edir.

## "Ağıllı" qəhvə masası



Kompüterləşdirilmiş sensor masaların istehsalı sahəsində etibar qazanmış "Ideum" şirkəti daha bir yeni məhsulunu təqdim edib - "ağıllı" qəhvə masası.

AzərTAc xarici KİV-lərə istinadən bildirir ki, qurğunun "Duet" adlanması heç də təsadüfi deyil, çünki masanın konstruksiyası iki müstəqil hesablama sistemini nəzərdə tutur. Onlardan biri "Android" əməliyyat sistemi ilə, ikincisi isə "Windows 8"-lə idarə edilir. Bununla istifadəçi lazım olan funksiyaları idarə etmək üçün ona daha uyğun gələn sistemi seçə bilər.

Masanın texniki xüsusiyyəti onun əyləncə üçün nəzərdə tutulması (video, internet-sörfinq, oyunlar) və vahid ev texnikası idarəetmə mərkəzinə malik olmasıdır.

Masa "Bluetooth" və "Wi-Fi" ilə təchiz edilib.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

# Odlu silah yaralanmalarının müalicəsində müasir yanaşmalar

## Bərdə Müalicə-Diaqnostika Mərkəzində hərbi və mülki tibb mütəxəssislərinin regional təlim toplanışı keçirilib



***Müdafiə Nazirliyi hərbi tibb mütəxəssislərinin təşkilatçılığı və iştirakı ilə Silahlı Qüvvələrin hərbi səhiyyə müəssisələrində elmi-praktik konfransların və təlim toplanışlarının keçirilməsi dəyərli bir ənənəyə çevrilib. Belə tədbirlər dünyada mövcud olan qabaqcıl təcrübənin öyrənilməsi və mənimsənilməsi baxımından maraq doğurur. Son zamanlar bu qəbildən tədbirlərin çevrəsi daha da genişlənib və Səhiyyə Nazirliyinin mütəxəssislərinin də buraya qatılması təlim toplanışlarının önəmini daha da artırıb.***

Bu günlərdə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Tibb Baş İdarəsinin, Hərbi Tibb Fakültəsinin və Səhiyyə Nazirliyinin mütəxəssislərinin təşkilatçılığı ilə Bərdə Müalicə-Diaqnostika Mərkəzində regional təlim toplanışı keçirilib.

"Hərbi travmalar zamanı cərrahi və anestezioloji-reanimasion yardımın təşkili, göstərilməsi və odlu silah yaralanmalarının müalicəsində müasir yanaşmalar" kimi yetərincə aktual mövzuya həsr edilmiş təlim toplanışında yaxın ərazidəki hərbi və mülki tibb müəssisələrindən də xeyli sayda mütəxəssis iştirak edib.

Elmi-praktik xarakter daşıyan tədbiri Silahlı Qüvvələrin baş cərrahı, tibb xidməti polkovniki Famil Babayev açdı və ilk növbədə ölkə rəhbərliyi səviyyəsində ordu quruculuğuna, o cümlədən hərbi tibb xidmətinin inkişafına göstərilən qayğıdan danışdı. Polkovnik qeyd etdi ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya göstərdiyi diqqət va qayğı nəticəsində tibb xidmətinin də maddi-texniki bazası təkmilləşdirilir, hərbi tibb hissəsi və müəssisələri ən müasir tibbi avadanlıqlarla təmin edilir, yaralıların təxliyyəsi üçün müasir sanitar helikopter və reanimobilləri alınır.

"Ordu sıralarında Vətənə xidmət edən, səhhətində problem yaranmış zabit, gizir və əsgərlərimizin, xüsusən də ağır yaralıların müalicəsi Azərbaycan Respublikası Müdafiə nazirinin bilavasitə qayğısı və nəzarəti altındadır", - deyə Silahlı Qüvvələrin baş cərrahı qeyd etdi ki, Səhiyyə nazirinin yaxından köməyi sayəsində Silahlı Qüvvələrin tibb xidməti ilə Səhiyyə Naziriliyinin müəssisələri arasında sıx əməkdaşlıq yaranıb.

Silahlı Qüvvələrin tibb xidməti ilə Səhiyyə Nazirliyinin birgə regional hərbi-tibbi təlim toplanışı artıq ikinci dəfə keçirilir. Birinci toplanış sentyabr ayında Gəncə şəhərində keçirilmişdi.

Tibb xidməti polkovniki Famil Babayev həmçinin "Hərbi travmalar zamanı cərrahi yardımın təşkili, odlu silah yaralanmalarının müalicə xüsusiyyətləri. Hərbi travmaların müalicəsində müasir yanaşmalar" mövzusunda çıxış etdi. O, hərbi travmalar zamanı yaralılara cərrahi yardımın təşkili və koordinasiyasından danışdı, yaralıların çeşidlənməsindən və onların müalicəsində müasir metod və yanaşmaların tətbiqindən, kliniki protokolların təşkilindən ətraflı söhbət açdı.

Hərbi səhra cərrahiyyəsinin sülh dövrü cərrahiyyəsindən fərqləndiyini bildirən Silahlı Qüvvələrin baş cərrahının sözlərinə görə, hərbi münaqişələr zamanı yaralılar qəbul edilərkən onlara yalnız hərbi deyil, eyni zamanda mülki tibb müəssisələri də tibbi xidmət göstərməli olur.



Hərbi travmalar zamanı anestezioloji-reanimasion və cərrahi yardımın təşkili, odlu silah yaralanmalarının müalicə xüsusiyyətlərini bilmək bu baxımdan zəruridir.

Sonra "Hərbi travmalar zamanı anestezioloji-reanimasion yardımın təşkili və göstərilməsi xüsusiyyətləri" mövzusunda Silahlı Qüvvələrin baş reanimatoloqu, tibb xidməti polkovniki Vüqar Abdullayevin məruzəsi dinlənildi. O, müasir hərbi təbabətdə yaralılara ilk tibbi yardım, onların təxliyyə edilməsi, müalicənin nəticələrinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin aparılması barədə ətraflı danışdı.

Hərbi Tibb Fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı, tibb elmləri namizədi Pərviz Məmmədovun "Silahlı Qüvvələrin tibb xidməti və Səhiyyə Nazirliyi arasında elmi əməkdaşlığın təşkili və koordinasiyası" mövzusunda məruzə də maraqla dinlənildi.

Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin nümayəndəsi Nabil Seyidovun çıxışı da olduqca aktual bir məsələyə - "Kliniki protokolların hazırlanması və tətbiqinin əsas prinsipləri" mövzusuna həsr edilmişdi.

Qeyd olundu ki, bu tədbir olduqca aktual problemə həsr olunub. Bu əməkdaşlıq hər iki tərəf üçün olduqca səmərəli, perspektivli bir sahəyə aiddir və bu toplanışın nəticələri ilk növbədə ölkənin müdafiə qabiliyyətini artırmaq məqsədinə xidmət edir ki, bu da hər bir ölkənin əsas strateji məsələlərindən biridir.

Eyni zamanda düşmən tərəfindən atəşkəs rejiminin pozulması cəhdləri, torpaqların hərbi yolla qaytarılmasının gündəmdə olması və Ali Baş Komandan tərəfindən orduya hər an döyüşə hazır olmaq tapşırığını aldığımız halda tibbi təminatın vacibliyi ön plana çıxır. Digər tərəfdən 20 ildən artıq hərbi həkimlərin topladığı zəngin təcrübənin mülki həmkarlarla bölüşməyin vacibliyi də diqqət çəkir.

Sonda həkimləri maraqlandıran suallar ətraflı cavablandırıldı.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu", fotolar müəllifindir**

# Şəhid əsgərin dəfn mərasimi keçirilib

***Yanvarın 31-də Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozaraq mövqelərimizi atəşə tutması nəticəsində şəhid olmuş həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Eşqin Rəhim oğlu Allahverdiyev bu gün Şəki rayonunun Böyük Dəhnə kəndində son mənzilə uğurlanıb.***



Vida mərasimində Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun başsağlığını şəhidin ailəsinə çatdıraraq qeyd edib ki, bu gün Azərbaycan əsgəri Vətən torpaqlarının keşiyində ayıqsayıqdır və düşmənin təxribat qruplarının qarşısı mərdliklə alınır, düşmən atəşləri vaxtında və layiqincə susdurulur. “Azərbaycan əsgərinin döyüş və vətənpərvərlik ruhu çox yüksəkdir və onlar bayrağımızı tezliklə Xankəndidə, Şuşada, Laçında və işğal altında olan digər torpaqlarımızda dalğalandırmağa hazır və qadirdirlər”.

Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxışında Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Prezident kimi fəaliyyətində ordu quruculuğunun əsas prioritet məsələ olduğunu, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer aldığını, ölkəmizdə şəhid ailələrinə və Qarabağ müharibəsi veteranlarına, əlillərinə daim diqqət və qayğı göstərildiyini, şəhid Allahverdiyevin ailəsinin də diqqətdə saxlanılacağını vurğulayıb.

Şəki rayon Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Məmmədnuru Əzizov, Böyük Dəhnə kənd bələdiyyəsinin sədri Kərəm Mürsəlov və başqaları çıxış edərək torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını bəyan ediblər.

Bölgənin qazisi Hacı Kamran əfəndi və şəhidin babası Paşa Vahab oğlu şəhidin dəfninin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

2000-dən çox adamın iştirak etdiyi böyük izdiham 2 kilometrdən artıq kənd yolunu piyada qət edərək şəhid cənazəsini başları üstündə bayraq edib və "Şəhidlər ölməz, Vətən bölünməz" nidaları ilə Şəhidlər xiyabanına doğru irəliləyib. Burada şəhid alqış sədaları altında Vətən torpağına əmanət edilib.



Əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri açılıb, məzar üzərinə Müdafiə Nazirliyi, Şəki şəhər İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki rayon şöbəsi və ictimai təşkilatlar adından əklillər və gül dəstələri düzülüb, cənazə üzərinə sərilmiş müqəddəs bayrağımız əbədi xatirə saxlanılması üçün şəhidin ailəsinə təqdim olunub.

Şəhidin babası nəvəsinin Vətən uğrunda həlak olmasından böyük qürur duyduğunu və bu bayrağın tezliklə Dağlıq Qarabağda dalğalanacağına əminliyini bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Əlağa Şıxlinski - 150*

# Müsəlman korpusunun komandiri

***Rusiyada 1917-ci ilin oktyabr çevrilişindən sonra Cənubi Qafqazda hərbi-siyasi vəziyyət olduqca mürəkkəb idi. Belə çətin tarixi şəraitdə general-leytenant Əlağa Şıxlinski əsasən azərbaycanlılardan ibarət olan müsəlman korpusunun təşkilinə başladı. 1917-ci il dekabrın 11-də Zaqafqaziya komissarlığı müsəlman hərbi birləşməsinin yaradılması haqqında dekret verdi.***

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində korpusun qərargahı Tiflisdə yerləşirdi. Təcrübəli general bütün təşkilati işlərə komandanlıq edirdi. Məlumat üçün bildirim ki, qərargahın tərkibinə - ümumi qərargah, ləvazimat rəisi, topçu müfəttişi, istehkam rəisi xidmətləri və digər zəruri xidmətlər daxil idi. Bacarıqlı komandir korpusun formalaşması prosesində bir sıra çətinliklərlə qarşılaşmalı oldu. Onlardan biri korpusun təchizat məsələsi idi. Bu çətinliyin aradan qaldırılmasında fəaliyyətdə olan müsəlman milli şuraları da öz köməklərini əsirgəmirdilər. Hələ general Ə.Şıxlinski korpus komandiri təyin edilməzdən əvvəl Tiflis Müsəlman Şurası milli qoşun hissələrinin təşkili üçün müəyyən qədər zəruri əşyalar toplamış və onları korpus komandanlığına təhvil vermişdi. Müsəlman ictimai təşkilatlarının fəalları satınalma yolu ilə silah-sursat əldə edərək, qoşun hissələrinə verirdilər. Zaqafqaziya komissarlığı və milli şuralar silah-sursat və təchizat problemini həll etmək məqsədilə "Cəbhənin silahları Zaqafqaziyada saxlanılmalıdır" şüarı ilə çıxış edərək ləğv olunan Rusiyaya məxsus hərbi hissələrin əmlakının Cənubi Qafqazda saxlanılmasına çalışırdılar. Bu vacib məsələnin həlli üçün Millətlərarası Hərbi Şura ilə Qafqaz cəbhəsi qoşunlarının rəhbərləri bir sıra qərarlar qəbul etdilər. Qərarlara görə, ləğv edilmiş hissələrin əmlaklarının hansı hissələrə təhvil verilməsi müəyyənləşdirildi. Məsələn, qarşılıqlı razılaşmada Yelizavetpolda (indiki Gəncə) yerləşən 219 saylı alayın, Qafqaz cəbhəsinin ləğv olunmuş 5-ci və 7-ci diviziyalarının, Lənkəranda olan 4-cü və 7-ci sərhəd alaylarının, Şamxordakı (indiki Şəmkir) hərbi hissələrin əmlakının yeni yara-



nan müsəlman hissələrinə verilməsi öz əksini tapmışdı. Ləğv olunan hərbi hissələrin əksəriyyəti silah-sursatı könüllü surətdə təhvil verməkdən imtina edirdi. Belə halda həmin hərbi hissələrə qarşı güc tətbiq olunurdu.

Müsəlman milli qoşun hissələrinin təşkilində yaranan başlıca çətinliklər - kadr və səfərbərlik məsələsi də əsas diqqəti çəkirdi. Komandir general Ə.Şıxlinski çalışırdı ki, korpusun tərkibinə daxil olan hissələrin şəxsi heyəti azərbaycanlılardan və digər müsəlman xalqlarının nümayəndələrindən ibarət olsun. O, korpusun zabit heyətində də azərbaycanlıların və digər müsəlmanların sayının artırılmasına böyük önəm verirdi. Çağırış işinin lazımi səviyyədə qurulması günün əsas tələbi sırasında dayanırdı. Azərbaycanlıların uzun illər boyu hərbi xidmətə çağırılmaması məsələsi çağırışı təşkil edəcək orqanların yaradılması işinin ləngiməsinə səbəb olurdu. Bununla belə, Müsəlman korpusunun tərkibində könüllü hərbi xidmətə yazılan azərbaycanlılar az deyildi. Qafqaz cəbhəsindəki azərbaycanlı və digər müsəlman zabitləri korpusun komandanlığında xidmətə cəlb edilirdi. Həmin zabitlərin arasında sonradan Cümhuriyyət ordusunda general-mayor rütbəsinə yüksəlmiş Həbib bəy Səlimov, Murad Gəray bəy Tlexas, Süleyman bəy Əfəndiyev, Əmənulla Mirzə Qacar kimi qeyrətli zabitlərimiz də var idi.

Müsəlman korpusunda rütbələrin verilməsi Zaqafqaziya komissarlığı tərəfindən müəyyənləşirdi. Korpusda xidmət edən generallar - komandir Ə.Şıxlinski başda olmaqla, Xəlil Talışinski və Ağausubov çar ordusunda qazandıqları təcrübələrini, qüvvələrini səfərbər edərək milli hərbi hissələrin formalaşdırılmasına çalışırdılar. General Ə.Şıxlinski korpusun əsas bazası olacaq milli zabit kadrlarının hazırlanması sahəsində də addımlar atmışdı. O, Bakıda bütün zəruri tələblərə cavab verən hərbi məktəb açmağı planlaşdırırdı. Korpusun komandiri Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına göndərdikləri raportda aşağı rütbəli milli zabitlərin çatışmazlığı ilə əlaqədar olaraq, Bakıda Müsəlman diviziyasının nəzdində milli hərbiyyə məktəbinin açılmasına razılıq verilməsini xahiş etmişdilər. Raportda qaldırılan məsələ üzrə Qafqaz cəbhəsi qoşunlarının baş komandanlığından da razılıq alınmışdı. Ancaq təşkilati məsələlərin uzanması və bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində milli hərbiyyə məktəbinin fəaliyyətə başlaması Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra mümkün oldu.

Müsəlman korpusunun Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində mövcud olan bolşevik-daşnak təhlükəsinin qarşısını almaq üçün yetərincə qüvvəsi yox idi. Böyük say və hərbi texnika üstünlüyünə malik olan daşnak-bolşevik qoşunları Gəncəyə doğru istiqamət aldılar. Azərbaycan xalqını daha böyük faciə və qırğınlardan qurtarmaq, Gəncəyə doğru irəliləməkdə olan daşnak-bolşevik qoşunlarının qarşısını kəsmək üçün, istiqlal mübarizəsinin liderləri Osmanlı Türkiyəsindən hərbi yardım almaq qərarına gəldilər. Dərhal qardaş köməyinə gələn türk hərbi qüvvələri daşnak-bolşevik qoşunlarının qarşısını almaqla bərabər, Müsəlman korpusunun da formalaşdırılması üçün əlverişli zəmin yaratdı. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı və komandir vəzifəsinə general-leytenant Ə.Şıxlinski təyin edildi. Ordu quruculuğu məsələlərində zəngin təcrübəyə malik olan general Ə.Şıxlinski Müsəlman korpusunun formalaşdırılması üçün başladığı işləri yeni şəraitdə davam etdirdi. Bununla da Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkilinə başlandı.

**Hazırladı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Moldovada "Bakı-2015" Birinci Avropa Oyunlarının təqdimatı olub



Yanvarın 29-da Kişinyovda "Bakı-2015" I Avropa Oyunlarının təqdimatı olub. Bu barədə AzərTAc-a Azərbaycanın Moldovadakı səfirliyinin mətbuat xidmətindən məlumat veriblər. "Bakı-2015" Avropa Oyunlarının təqdimat mərasimində Azərbaycanın Moldovadakı səfiri Namiq Əliyev çıxış edib. Səfir çıxışında tədbirin təşkilinə görə Moldova Milli Olimpiya Komitəsinə təşəkkür edərək, idman tarixində ilk Avropa Oyunlarının əhəmiyyətindən, Azərbaycanın bu oyunlara hazırlığından söz açıb. Bildirilib ki, bu irimiqyaslı tədbirə qısa müddətdə hazırlaşmaq son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sabit və dinamik inkişafı, ölkəmizdə idmana göstərilən diqqət və qayğı sayəsində mümkün olub.

## Azərbaycan güləşçiləri Parİsdə "Qran-pri" yarışında uğurla çıxış ediblər



Yanvarın 31-i və fevralın 1-də Paris şəhərində güləş üzrə beynəlxalq "Qran-pri" turniri keçirilib. Qadın güləşçilərimiz ilk yarış günündə 2 gümüş medal qazanıb. Alyona Kolesnik (55 kq) və Nataliya Sinişin (60 kq) yalnız final görüşündə uduzaraq fəxri kürsünün ikinci pilləsində qərarlaşıblar. Yunan-Roma güləşçilərimizdən Elvin Mürsəliyev (80 kq) qızıl, Kamran Məmmədov (66 kq) və Camaləddin Məmmədov (125 kq) gümüş, Orxan Nuriyev (98 kq) və Ruslan Dibirhacıyev isə bürünc medala sahib olub. Sərbəst güləşçilərimiz turnirdə 2 qızıl və 2 bürünc medal qazanıblar. Məhəmməd Müslümov (65 kq) və Olimpiya çempionu Şərif Şərifov (97 kq) turnirin qızıl medalına sahib olublar. Bürünc medalları isə yığmamıza Hacı və Yaşar Əliyev qardaşları qazandırıblar.

## Azərbaycan çaparının İspaniyada möhtəşəm qələbəsi



Azərbaycan çapari Camal Rəhimov atçılığın konkur növü üzrə İspaniyada təşkil edilən OLIVA beynəlxalq turnirinin qalibi olub. AzərTAc xəbər verir ki, C.Rəhimov "Excenel V" ləqəbli atla marşrutu 72,62 saniyəyə qət edib. Yarışda iştirak edən 34 idmançıdan 12-si finalda mübarizə aparmaq hüququ qazanıb. Turnirdə möhtəşəm çıxışı ilə yadda qalan həmyerlimiz bütün rəqiblərindən üstün olub.

## Dünya cüdo turu Bakıdan keçəcək

Dünya Cüdo Federasiyası (IJF) Azərbaycanı da əhatə edən "Dünya cüdo turu" layihəsinə start verir. AzərTAc xəbər verir ki, bu, turun ən mühüm turniri kimi "Böyük dəbilqə" yarışlarından biri may ayında Bakıda keçiriləcək. Layihə 21 turniri, o cümlədən müxtəlif kateqoriyalı dörd dünya çempionatını, bir "World Masters", beş "Böyük dəbilqə" turnirini (biri Bakıda keçiriləcək), 11 Qran-Pri yarışını əhatə edir. IJF ofisinin başçısı Larisa Kiss vurğulayıb ki, cüdonu daha da inkişaf etdirmək üçün London Olimpiadasındakı uğura söykənmək və bu uğuru Rio-de-Janeyro oyunlarında üstələməyə çalışmaq lazımdır: "Bu il Mərakeşdə "World Masters" turnirindən sonra cüdoçulara Olimpiya təsnifatının hesabına 100 faiz xal veriləcək. Bu, təkcə cüdonun imici üçün deyil, ayrılıqda hər bir dövlət üçün müsbət amildir".

## Gənclər Gününə həsr olunmuş veloyürüşdə 200 velosipedçi iştirak edib



2 Fevral Azərbaycan Gənclər Günü münasibətilə "Gənclik veloyürüşü" keçirilib. Veloyürüşdə peşəkar və həvəskarlardan ibarət 200 velosipedçi iştirak edib.

"İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov bildirib ki, veloyürüşün məqsədi sağlam həyat tərzi ilə bağlı gənclər arasında təbliğat aparılması, gənclərin asudə vaxtının səmərəli təşkili və onlara Azərbaycan Gəncləri Gününün əhəmiyyətinin aşılanmasıdır. M.Seyidov "Bakı-2015" ilk Avropa Oyunlarının proqramına daxil olan velosiped idmanı növünün gənclər arasında təbliğinin önəmindən danışıb.

Dövlət Bayrağı Meydanından başlayan "Gənclik veloyürüşü" Azadlıq Meydanında başa çatıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Tarix*

# Separatizm: Dağlıq Qarabağ




**(Əvvəli ötən nömrəmizdə)**

Ermənistan sovetləşdirildikdən sonra da mərkəzi bolşevik hakimiyyəti çarizm dövründəki siyasəti davam etdirməyə, Azərbaycana məxsus tarixi əraziləri Ermənistana verməyə başladı. Bununla əlaqədar olaraq Azərbaycan SSR xalq ədliyyə komissarı Behbud Şahtaxtinski Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinə (RK (b) P MK) yazırdı ki, Zəngəzurda 123 min 95 nəfər azərbaycanlının, 99 min 257 nəfər ermənininin yaşamasına baxmayaraq, 1920-ci il noyabrın 30-da Zəngəzur qəzasının qərb hissəsi Ermənistana verilmişdir. Bununla da Azərbaycanın Naxçıvan bölgəsi ilə, Türkiyənin isə türk dünyası ilə quru əlaqəsi kəsildi. Sovet Ermənistanında yaşayan azərbaycanlılara qarşı yürüdülən siyasət Daşnaksütyunun hakimiyyəti illərindəkindən o qədər də fərqlənmirdi. Sayca Azərbaycandakı ermənilərdən çox olmasına baxmayaraq, Ermənistanda tarixi ərazilərində yaşayan azərbaycanlılara muxtariyyət verilmədi. Azərbaycanda isə ermənilər üçün muxtariyyət yaradıldı. Belə ki, RK (b) P MK Qafqaz bürosu plenumunun 1921-ci il iyulun 5-də keçirilən iclasında Dağlıq Qarabağ məsələsi müzakirə edildi. Azərbaycanlılarla ermənilər arasında milli sülhün zəruriliyi, yuxarı və aran Qarabağın Azərbaycan ilə iqtisadi əlaqəsi, daimi əlaqəsi nəzərə alınaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı. Azərbaycan SSR 1922-ci ildə Zaqafqaziya ittifaqına (ZSFSR-ə) qəbul olunanadək Yeni Bəyazid qəzasının Basarkeçər bölgəsi Rusiya imperiyasının müəyyənləşdirdiyi sərhədlərdə və Şərur-Dərələyəz qəzasının üçdə iki hissəsi artıq Ermənistana verilmişdi. ZSFSR-ə qəbul edildikdən sonra isə Qazax qəzasının bir hissəsi, Cəbrayıl qəzasının və Naxçıvan Muxtar Respublikasının bəzi kəndləri Ermənistanın tərkibinə qatıldı. Beləliklə, 1918-1920-ci illərdə Azərbaycanın 113895, 97 kv.km ərazisindən Sovet dövründə yalnız 86,6 min kv.km qaldı. Qarabağın dağlıq hissəsi məzmununda coğrafi anlayış bildirən "Dağlıq Qarabağ" ifadəsi Birinci Dünya müharibəsinin sonlarında terminləşməyə, yəni konkret siyasi məna kəsb etməyə başlayır. Muxtar vilayətin ərazisi 4,4 min kv. km, Azərbaycan Respublikasının 5-dən 1-ni təşkil edir. 1970-ci ildə DQMV-də 150 mindən bir qədər artıq əhali yaşayırdı. Vilayətin tərkibinə Xankəndi şəhəri, Əsgəran, Hadrut, Ağdərə, Martuni, Şuşa rayonları daxil idi.

1987-ci ildə ermənilər Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi ilə imza toplamağa başladılar. Bu tələblərin qarşısını almaq məqsədilə azərbaycanlılar prokurorluğa, DTK-ya, Ali Sovetə, Daxili İşlər Nazirliyinə dəfələrlə müraciətlər etdilər. Lakin bütün bu müraciətlərə məhəl qoyulmadı.

Hadisələr 1988-ci ilin fevralından daha aqressiv məcraya yönəldi. Fevral ayında İrəvanda və Xankəndində separatçılar və erməni millətçilərinin mitinqlər dalğası başladı. Ayın 13-dən etibarən isə ermənilər maşınlarla Əsgərandan DQMV-nin Partiya Komitəsinin binasına gələrək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə orada çadır qurdular. Vilayət Partiya Komitəsinin sədri Aslanov Armais Armenakoviçi tutduğu vəzifədən azad etdirdilər və onun yerinə Osipov gətirildi. May ayının 25-dən etibarən isə Vilayət Partiya Komitəsində məsul vəzifədə çalışan azərbaycanlılar işdən çıxarıldı.

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

*Əsgərin tribunası*

# Azərbaycan əsgəriyəm...

***Mən, Həmzəyev Yusif İlqar oğlu, Goranboy rayonundan hərbi xidmətə çağırılmışam. Ali təhsilliyəm. Bakıda yerləşən "N" hərbi hissəsində 6 aydır ki, xidmətdəyəm. Bu məktubumu "Əsgər tribunası"nda dərc etdirsəniz, çox sevinərəm.***

Uşaq vaxtı valideynlərimiz, məktəb illərində müəllimlərimiz düşmənimizin erməni olduğunu, torpaqlarımızın işğalda olduğu haqda çox danışıblar.

Heç vaxt yadımdan çıxmaz, hələ məktəbə təzə gedirdim. Babam nəvələrini ətrafına toplayıb Xocalı faciəsinin şahidlərinin danışdıqlarını oxuyurdu.

"Ruslar tanklar və BTR-lərlə şəhərə daxil olaraq evlərimizi darmadağın etdilər. Arxalarınca isə ermənilər gəlirdi. Beş yaşında nəvəmi götürüb meşəyə qaçdım. Bir sutka qarın altında qalmışam. Körpə donmamaqdan ötrü paltarlarımı soyunub uşağa bükmüşdüm. Artıq taqətim qalmamışdı. Naxçıvanik kəndinə yollanıb ermənilərə yalvardım ki, nəvəmə rəhm etsinlər. Məni təhqir edib komendanta təhvil verdilər. O əmr verdi ki, bizi tövləyə salsınlar. Burada çoxlu qız-qadın, körpə vardı. Sonra bizi Əsgərana gətirdilər. Arvadım, qızım, yeznəm burada idilər. Boyeviklər dırnaqlarımı



çıxartdılar. Zəncilər göyə atılıb üzümüzə təpik vururdular. Çox işgəncədən sonra məni ermənilərlə dəyişdirdilər. Nəvəm, arvadım, qızım və yeznəmdən heç bir xəbər yoxdu".

Uşaq olsam da, hadisəni gözümün önündə canlandırır, Cəmil babanın yerinə babamı, nəvəsinin yerinə isə özümü qoyurdum. Odur ki, məndən böyüyəndə nə olacaqsan sualına uca səslə, şərəflə, mərdliklə "ƏSGƏR" olacağam deyirdim.

"Azərbaycan əsgəriyəm", bu sözlərin mənasına varan hər kəs Vətənini, millətini, xalqını sevən kəslərdir.

Azərbaycan əsgəri adını şərəflə daşıyan gənclərimiz hərbi xidmət dövründə döyüş vərdişləri qazanmaqla Vətənimizin etibarlı müdafiəçiləri kimi yetişməlidirlər. Ona görə ki, sınaq meydanında düşmənə əyilməyək, sınmayaq. Vətənə övlad borcunu yerinə yetirən gəncin döyüşçü kimi yetişməsində komandirlər mühüm rol oynayırlar. Hər bir komandir öz əsgərini bacarıqlı döyüşçü kimi yetişdirməyə çalışır. Ona görə ki, əsgər komandirin əsas güvənc yeridir.

Mən və bütün əsgər yoldaşlarım bu gün Ali Baş Komandanın əmrini gözləyirik ki, torpaqlarımızı azad edək. Söz vermişik ki, qarşımızda dayanan mühüm sınaqdan alnıaçıq, üzüağ çıxaq...

**Yusif HƏMZƏYEV,**
**"N" hərbi hissəsinin əsgəri**

*Münasibət*

# Saman çöpü dağ çayına düşdüsə...

Çox düşünmüşəm, indi də düşünürəm: torpaqlarımızı işğal eləməyə Ermənistanın gücü çatardımı? Bunu təkbaşına bacarardımı? Qətiyyən yox!..

O illərdə tanıdığım döyüşçülərin qətiyyətini, əzmini, vətənpərvərliyini xatırlayıram. Vətən kəlməsini varlığının, yaşamının qayəsi bilənlər torpaqlarımıza görə canlarından da keçməyə hazır idi. Orta yaşlı bir döyüşçü vardı: Həsən. Goranboy əməliyyatında tanış olmuşduq. Bakı şin zavodunun mühəndisiydi. Döyüşən ordumuza yardım gətirəndə geri qayıtmamışdı, döyüşçü olmuşdu... "Getmirəm, gedə bilmərəm" - demişdi. "Mən də sizin biriniz..."...

Ağdərə əməliyyatı ərəfəsində söhbətləşirdik. Sərin-sərin yel əsirdi. Bu yelin hardan əsdiyini o da yaxşı görürdü, mən də. Bu yel cavan döyüşçülərin həndəvərinə yaxın düşə bilmirdi, yoxsa döyüşçülər bunu hiss eləmirdilər? - hər nəyiydisə, hərə öz aləmindəydi. Həsən gözlərini onlardan üzə bilmirdi. Yarı canı ordaydı:

- Hərə bir can borcludu, - köksünü ötürdü. - Özümü qətiyyən fikirləşmirəm, onları fikirləşirəm...

Ermənilər belə düşünən, bu amalla yaşayan döyüşçüləri təkbaşına məğlub edə bilməzdi. Bir vaxt tək döyüşdü, Ağdərədə məğlub oldu, sonradan isə havadarlarının hərtərəfli yardımıyla bizim ordumuzu Ağdərədən sıxışdırıb çıxartdı...

Həm də dünya ictimaiyyətinə utanc gətirməli olan həqiqət. Rusiya bu müharibədə bu və ya digər mənada öz iştirakını gizlətsə də, kimə (torpağı işğala məruz qalan dövlətə, yoxsa işğalçı dövlətə) "yön basdığını" etiraf eləməsə də. El arasında deyildiyi

Xocalıda da, Laçında da belə olmuşdu...

Nazirlər Kabinetinin 2014-cü ilin yekunlarına həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dünya ictimaiyyətinə məhz bu məqamları çatdırdı: "...həqiqət budur ki, bizim torpaqlarımızın işğal altında qalması kasıb və taqətsiz Ermənistanın təkbaşına işi deyil..."...

Həqiqətdir...

kimi, "Andına inanıram, ancaq xoruzun quyruğu görünür": Jurnalist, politoloq, "İarex" informasiya agentliyinin təsisçisi və baş redaktoru Modest Kolesorun fikirləri əslində reallığın etirafıdır. Rusiya ictimaiyyəti də eşitdi və gördü ki, tarixi gerçəkliyin söz ömrü bütün təhdidlərdən, şirnikləndirici amillərdən ucada dayanır. Təbii ki, bəşəri duyğular baxımından düşünəndə, dərk edəndə... Ermənilər unutmasınlar ki, əgər onları zəhmli (kursiv bizimdir - R.F) qonşularından qoruyan Rusiya olmasaydı, Ermənistan da olmazdı. Və Gümrü hadisəsi Ermənistan-Rusiya münasibətlərində çat yaradıb. Bu çat təbii ki, dərinləşəcək. Modest Kolerovun təbirincə desək, "ermənilər Rusiyaya yalvarırlar ki, onların dövlətini qorusun", Nə vaxta kimi? "Cida çuvalda nə vaxta kimi gizlədiləcək?"

İngilis imperialistləri son nəfəsi Çanaqqalada çəkdilər, Napoleon fransası Alp dağlarında, Hitler Almaniyası Reyxstaqda...

Minlərlə erməni bir loxma çörək üçün Ermənistanı tərk edir, neçə ailə Azərbaycandan sığınacaq istəyir; ermənilik xərçəngə yoluxmaqdadı. Erməni diasporları ac erməniyə çörək vermir, erməniliyin icraçılarının "qoltuğuna qarpız verir"...

"Arşını əyilmiş" Ermənistan son nəfəs ərəfəsindədi. Suda boğulan saman çöpünə də əl uzadır. Saman çöpü dağ çayına düşdüsə, xilas etmək olarmı?

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 224
Nüsxə 4600